# Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir

**Milli mücadilə nəticəsində müstəqilliyini əldə edən hər bir dövlətin özünəməxsus milli ideologiyası-dövlətçilik ideologiyasının bərqərar olması təməl prinsiplərdəndir . Milli ideologiya isə dövlətin daxili və xarici siyasətinin əsasını təşkil edir. Müstəqil Azərbaycan dövlətinin milli ideologiyasının təməl sütununu azərbaycançılıq təşkil edir.**



Azərbaycançılıq ideologiyası özündə milli, mənəvi və ümumbəşəri dəyərləri əks etdirir. Milli ideologiyamızın tarixi kökləri və təkamülü keçmiş dövrlərlə, xüsusilə XX əsrin əvvəllərindəki milli azadlıq mübarizəsi tarixi ilə səsləşsə də, əslində müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyasının müasir konsepsiyasının əsas müddəaları müstəqil Azərbaycanın memarı, ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir.

Müstəqil Azərbaycan dövlətinin, dövlətçiliyinin təşəkkül meyillərinə və gələcək perspektivlərinə diqqətlə nəzər yetirəndə görürük ki, bütün bunlar heç də asanlıqla əldə edilməmişdir. Çünki milli-azadlıq mücadiləsi nəticəsində əldə etdiyimiz müstəqillik səbatsız, heç bir idarəçilik qabiliyyəti olmayan "cırtdan rəhbərciklərin", saxta "qəhrəmanların" səriştəsizliyindən məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz həmin illərdə torpaqlarımız ermənilər tərəfindən işğal olunur, respublika ağır siyasi və iqtisadi böhran girdabında çapalayırdı. Ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə - 1970-80-ci illərdə qurub-yaratdıqları göz görə-görə dağılıb gedirdi. Nəhayət, xalqımız bütün bunlara "dur" deyərək, ümummilli lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər xalqın təkidli tələbinə, dövlət müstəqilliyinin qorunub saxlanılmasına əlbəttə ki, biganə qala bilməzdi. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev 1993-cü ilin iyununda Bakıya gəldi. Ümummilli Liderin respublika rəhbəri seçilməsi ilə Azərbaycanda müstəqillik tarixinin ikinci dövrü başlandı. Müstəqilliyimizə qənim kəsilmiş qüvvələrin bütün manеələrini böyük ustalıqla dəf edən Ulu Öndər dövlətçiliyin bərpa olunması yolunda ciddi addımlar atdı, Azərbaycanın əsl müstəqilliyini təmin etdi. Dünyanın tanınmış şirkətləri ilə neft müqavilələri imzalandı, ictimai-siyasi sabitlik bərpa olundu. Müstəqil dövlətimizin ilk demokratik Konstitusiyası qəbul olundu, nizami ordu quruculuğu sürətləndirildi.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasətin kökündə milli təfəkkür, milli şüur, milli düşüncə, ən başlıcası isə azərbaycançılıq məfkurəsi dayanırdı.

Azərbaycan 50 milyon azərbaycanlının tarixi vətənidir. Bütün dünya azərbaycanlılarından, hansı ölkədə yaşamalarından asılı olmayaraq bir vəzifə tələb olunur-Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, xalqımızın bu günü və gələcəyi haqqında düşünmək və ona öz töhfələrini vermək. Bu birliyi şərtləndirən əsas prinsip isə dövlətçiliyin və azərbaycançılığın hər şeydən öndə dayanmasıdır. Ulu öndər Heydər Əliyevin bütün dünya azərbaycanlılarını bir ideya- azərbaycançılıq ideyası ətrafında birləşməyə çağırışı da bu məqsədə xidmət edirdi.

Azərbaycançılığın tərkib hissələrindən olan dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası hələ 1991-ci lin 16 dekabrında qoyulub. O illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Artıq 22 ildir ki, həmin gün milli bayramlarımızın sırasında öz möhtəşəm yeri ilə fərqlənir.

Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli mənəvi dəyərlərimizdir. Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

Azərbaycançılıq ideyasını dövlətin strateji xətti kimi irəli sürən Ümummilli Lider 1993-cü ildə hakimiyyətə qayıdışından sonra xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Dahi rəhbər xarici ölkələrə səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində onların problem və qayğılarına diqqətlə yanaşır, təşkilatlanmaları üçün tövsiyələrini verirdi. Xarici ölkələrdəki səfirliklərimiz diaspor quruculuğu prosesinə cəlb olunaraq, həmvətənlərimizi Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında real iştiraka istiqamətləndirirdi.

Ulu Öndərin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayı xarici ölkələrdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi və təşkilatlanması üçün böyük stimul oldu. Bu qurultay azərbaycançılıq ideyasının möhkəmlənməsində, eləcə də diaspor hərəkatının inkişafında yeni tarixi mərhələnin əsasını qoydu.

Azərbaycançılığın mühüm tərkib hissələrindən biri Azərbaycan dilidir. Ana dilimizin inkişaf etdirilməsi həmişə Ulu Öndərin diqqət və qayğısı ilə əhatə olunub. Hələ sovet dövründə çoxlu təzyiqlərə baxmayaraq Ümummilli Lider Azərbaycan dilinin respublikada dövlət dilinə çevrilməsi yolunda əsl fədakarlıq göstərirdi. O dilimizin zənginləşməsinə, beynəlxalq münasibətlər sisteminə yol tapmasına xüsusi fikir verirdi. Rəsmi və qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqla dilimizin ictimai-siyasi mövqeyini yüksəldirdi. Məhz onun respublikamıza birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illərdə dilimizin tarixi ciddi şəkildə araşdırılmış, çoxcildlik "Müasir Azərbaycan dili"" kitabları işıq üzü görmüşdür.

Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dilimizlə əlaqədar, onun təkmilləşdirilməsi ilə bağlı ümummilli lider çoxlu sərəncam və fərmanlar imzalamışdır ki, bu da siyasi, ictimai və mədəni aspektdə dilimizin mövqeyinin möhkəmləndirilməsi üçün bir sıra islahatların aparılmasına rəvac vermişdi.

Ulu Öndərin 2001-ci il avqustun 9-da imzaladığı Sərəncama əsasən hər il 1 avqust ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq məfkurəsinin əsas komponentlərindən olan milli mənəvi dəyərlərimizin qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. O qeyd edirdi ki, milli dövlətçilik və milli mənəvi dəyərlər bir-birindən ayrılmazdır. Ulu öndərin bununla bağlı həyata keçirdiyi tədbirlər dünya mədəniyyət xəzinəsinin əvəzsiz inciləri olan milli-mədəni abidələrin qorunmasına, milli yaddaşın möhkəmləndirilməsinə öz töhfəsini verib.

Azərbaycançılıq həm də tariximizin və mədəniyyətimizin dünyada təbliği deməkdir. Ulu Öndərin təşəbbüsü ilə dahi Azərbaycan şairi M.Füzulinin 500, "Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin yalnız respublikamızda deyil, dünyanın bir çox ölkələrində keçirilməsi çox böyük siyasi-ideoloji əhəmiyyət kəsb edir.

Böyük qürur hissi ilə demək lazımdır ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə 2006-cı ilin martında Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi bunun bariz nümunəsidir.

Ulu Öndərin ideyalarını layiqincə həyata keçirən Prezident İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Onun 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı Sərəncamı əlifba ilə bağlı problemlərin həlli yolunda uğurlu addım idi. Dövlət rəhbərinin sonrakı sərəncamlarında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", "Dünya uşaq ədəbiyyatı kitabxanası", eləcə də 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyalarından olan yeni nəşrlər latın qrafikalı ədəbiyyat fondumuzu zənginləşdirdi. Ölkə başçısının "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 13 yanvar tarixində imzaladığı Sərəncam mənəvi xəzinəmizin zənginləşməsində böyük əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev həmişə xarici səfərlərində, müxtəlif görüşlərdə Azərbaycan dilinə, mədəniyyətinə, milli adət-ənənələrimizə ehtiramla yanaşır.

Bu gün Azərbaycan müstəqillik yollarında inamla irəliləyir. Prezident İlham Əliyevin apardığı praqmatik, düşünülmüş siyasət nəticəsində ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi milli ideologiya və güclü dövlətçilik təlimi kimi nüfuz qazanıb.

Əsrlər boyu coğrafi anlayış olub, yalnız ötən yüzillikdə milli ideologiya kimi formalaşan azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi məhz ümummilli lider Heydər Əliyevin xalqımız, Vətənimiz qarşısındakı misilsiz tarixi xidmətlərindən biridir.

**Zahid Rza,**
***"İki sahil"***